








# Sarıcalı və Ballıca kəndləri növbəti köç karvanlarını qarşılayıb

**Tariximizin ən şanlı səhifələrindən olan 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin yurd nisgilinə son qoyulub və onlar mərhələli olaraq doğma el-obalarına geri dönürlər.**







Dünən Böyük qayıdış çərçivəsində Ağdam rayonunun Sarıcalı və Xocalı rayonunun Ballıca kəndləri növbəti köç karvanlarını qarşılayıb. Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə bu mərhələdə 34 ailə - 141 nəfər, Xocalı rayonunun Ballıca kəndinə isə 21 ailə - 83 nəfər köçürülüb.

Uzun illər doğma yurd xiffəti ilə yaşayan insanlar onlara göstərilən hərtərəfli dövlət qayğısına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə təşəkkürlərini ifadə edib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

2022-ci il oktyabrın 4-də təməli qoyulan, cari il martın 25-də birinci mərhələsinin açılışı həyata keçirilən Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Sarıcalıda inşa olunmuş bütün qeyri-yaşayış binalarının, o cümlədən inzibati binanın damında günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin edilir.

Birinci mərhələ üzrə Sarıcalıya 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

2023-cü ildə azad olunan Ballıca kəndi də mütəmadi qayıdış karvanlarını qarşılayan yaşayış ünvanımızdır. Yeni dövrünə qədəm qoyan Ballıca kəndinin bərpası artıq son mərhələdədir. Burada 137 ev bərpa edilib. Sonuncu köç ilə birlikdə kənd sakinlərinin sayı 743 nəfərə çatıb.

Açarların təqdimetmə mərasimində çıxış edən Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli bildirib ki, mərhələli şəkildə doğma torpaqlarına köç edən keçmiş məcburi köçkünlər üçün Ballıca kəndində hər cür şərait yaradılıb. Onların məşğulluq məsələləri diqqət mərkəzində saxlanılır.

Böyük qayıdış proqramına əsasən, ilk beşillikdə 34 min 500 ailə azad edilmiş ərazilərə köçürüləcək. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Torpaqlarına qovuşan insanların sayı artıq 13059 nəfərə (3296 ailə) çatıb, 5 şəhər və 8 kənd olmaqla 13 yaşayış məntəqəsində həyat axarına qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, 157 ailə (743 nəfər) Xocalı rayonunun Ballıca kəndində, 50 ailə (166 nəfər) Ağdərə rayonunun Həsənriz kəndində, 180 ailə (592 nəfər) Ağdərə rayonunun Suqovuşan kəndində, 110 ailə (440 nəfər) Ağdam rayonunun Sarıcalı kəndində məskunlaşıb.

Hazırda Qarabağda və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 40 minə yaxın insan yaşayır. Həyata keçirilən quruculuq və bərpa işləri sayəsində bütün keçmiş məcburi köçkünlər öz torpaqlarına qayıdacaqlar.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.-22 aprel (№ 79).- S.6.